**Türkiyənin Antalya şəhərində "Əhalinin proqnozu" mövzusunda təlim kursu keçirilmişdir**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Əhali və gender statistikası şöbəsinin müdiri Rza Allahverdiyev və Statistik Məlumatların ETLTM-nin Statistik məlumatların ekonometrik təhlili şöbəsi rəisinin müavini Səadət Rəhimova cari il sentyabr ayının 23-dən oktyabr ayının 02-dək BMT-nin Əhali Fondunun və Rusiya Ali İqtisad Məktəbinin Milli Tədqiqatlar Universitetinin (AİM MTU) maliyyə dəstəyi ilə Türkiyənin Antalya şəhərində MDB ölkələri üçün təşkil edilmiş "Əhalinin proqnozu" mövzusunda keçirilmiş təlim kurslarında iştirak etmişlər.

Bu təlim kursunda MDB ölkələrinin (Azərbaycan, Belarus, Moldova, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan) Milli Statistika xidmətlərinin, Əmək və əhalinin sosial müdafiəsi və İqtisadi İnkişaf nazirliklərinin, Rusiya Elmlər Akademiyasının, BMT-nin Əhali Fondunun nümayəndələri, eləcə də Rusiya Ali İqtisad Məktəbinin Milli Tədqiqatlar Universitetinin və Moskva Dövlət Universitetinin mütəxəssisləri də iştirak edirdilər. Ümumilikdə, təlim kursunda 30 nəfərin iştirakı təmin edilmişdir.

Qeyd olunan təlim kursunun əsas məqsədi gələcək illər üçün əhalinin proqnoz sayının beynəlxalq standartlara uyğun olaraq hesablanması metodologiyasının öyrənilməsindən və həmin metodologiyaların milli xüsusiyyətlərə görə praktiki olaraq həyata keçirilməsindən ibarət olmuşdur.

Təlim kursu layihə çərçivəsində planlaşdırılmış proqram üzrə keçirilmişdir.

Tədbir ümumilikdə səmərəli keçmiş və sonda seminar iştirakçılarına beynəlxalq sertifikat təqdim olunmuşdur.